


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 146 (21.807)

4 avqust 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən rayonuna səfərə gedib.

Dövlət başçısı həmin gün Balakən Su Elektrik Stansiyasının, Balakən şəhərində inşa olunan Bayraq Muzeyinin, Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala avtomobil yolunun və "ABAD Mərkəz"in açılışlarında iştirak edib.

* * *

Prezident İlham Əliyev avqustun 3-də Zaqatala rayonuna səfərə gedib.

Dövlət başçısı həmin gün Zaqatalada "Azərtütün" MMC-nin tütün emalı zavodunun fəaliyyəti və Zaqatalada "AzRose" MMC-nin tikintisi davam edən qızılgül yağı istehsalı müəssisəsi ilə tanış olub.

Avqustun 3-də Zaqatalada 110/35/10 kV-luq "Bəhmətli" elektrik yarımstansiyasının açılışı olub.

Ölkə başçısı açılışda iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Qax rayonuna səfərə gedib.



## Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində kollegiya iclası keçirilib

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov açıb. Komitənin sədri Hicran Rüstəmov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrdə qazanılmış uğurlar cari ilin ilk 6 ayı ərzində qorunub saxlanılıb, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı üzrə mühüm tədbirlər həyata keçirilib. Bütün bunların əsası ümummilli liderimiz tərəfindən müəyyən olunmuş inkişaf strategiyasının davamlı şəkildə həyata keçirilməsi nəticəsində əldə edilib.

Kollegiyada çıxış edən Baş nazirin birinci müavini Asəf Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində muxtar respublikada iqtisadiyyatın bütün sahələri kimi, tikinti sektoru da sürətlə inkişaf etməkdədir. 2017-ci ilin birinci yarısında muxtar respublikada komitənin xətti ilə 43 milyon 117 min manat inşaat işləri yerinə yetirilib. Cari ilin 6 ayında Naxçıvan şəhərindəki 3 və 13 nömrəli, Şərur şəhərində 2 nömrəli, Şərur rayonunun Çəmənli, Şahbuz rayonunun Kolanı kəndlərində tam orta məktəb binaları istifadəyə verilib. Naxçıvan şəhərinin Qaraxanbəyli, Şərur rayonunun Ərəbyengicə tam orta məktəblərinin və musiqi məktəbinin, Culfa rayonunun Dizə, Ordubad rayonunun Üstüpü kəndlərində orta məktəb binalarının tikintisi, Şərur rayonunun Ələkli, Qarahəsənli, Babək rayonunun Payız kəndlərində tam orta məktəb binalarının yenidən qurulması davam etdirilir.

Qeyd olunub ki, hesabat dövründə Kəngərli rayonunun Qıvraq qəsəbəsində 222 yerlik uşaq bağçası üçün müasir bina tikilib, Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsi üçün tədris binasının yenidən qurulması və Naxçıvan Müəllimlər İnstitutu üçün yeni korpusun tikintisi davam etdirilir.



Cari ilin 6 ayı ərzində Şərur Rayon Mərkəzi Xəstəxanasında əsaslı təmir işləri başa çatdırılıb, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası binasının yenidən qurulması, Şərur rayonunun Ərəbyengicə, Ordubad rayonunun Üstüpü kəndlərində həkim ambulatoriyalarının tikintisi aparılır.

Tarixi-mədəni irsin qorunması və təbliği məqsədilə Qarabağlar Türbə Kompleksinin bərpası davam etdirilir. Bundan başqa, Şərur rayonunun Yengicə kəndindəki qədim hamamda bərpa işlərinə başlanılıb, Kəngərli rayonunun Şahtaxtı kəndində M.Şahtaxtinskinin ev-muzeyində təmir işləri, Naxçıvan şəhərində məscidin tikintisi, Sədərək rayonunda isə mədəniyyət evində yenidənqurma işləri aparılır.

2017-ci ilin birinci yarısında Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Çəmənli və Arpaçay yaşayış məntəqələrində kənd mərkəzlərinin açılışı olub, Naxçıvan şəhərinin Qaraxanbəyli, Şərur rayonunun Qarahəsənli, Ələkli, Ərəbyengicə, Babək rayonunun Payız, Gərməçataq, Culfa rayonunun Dizə, Ordubad rayonunun Üstüpü kəndlərində kənd mərkəzlərinin tikintisi davam etdirilir.

Baş nazirin birinci müavini deyib ki, əhalinin mənzil-kommunal təminatının yaxşılaşdırılması sahəsində işlər davam etdirilib, Naxçıvan şəhərində 1 yaşayış binasının tikintisi başa çatdırılıb, 5 yaşayış binasının əsaslı təmiri və yenidən qurulması işləri görülür.

Təsərrüfat subyektlərinin elektrik enerjisinə olan tələbatının tam təmin edilməsi məqsədilə Araz çayı üzərində 36 meqavat gücündə olan derivasiyatipli Ordubad Su Elektrik Stansiyasında inşaat işləri aparılır.

Dövlət idarəetmə, inzibati və hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının gücləndirilməsi sahəsində görülən işlərdən də danışan Asəf Məmmədov daha sonra diqqətə çatdırıb ki, muxtar respublikada görülən tədbirlərin davamı kimi avtomobil yollarının bərpası və yenidən qurulması, yeni yol şəbəkələrinin salınması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, bu işlər cari ilin 6 ayı ərzində də davam etdirilib, 10 kilometr uzunluğu olan Şıxmahmud-Xəlilli-Naxçıvan şəhər avtomobil yolunun tikintisinə başlanılıb.

Vurğulanıb ki, bir qayda olaraq tikintisi həyata keçirilən obyektlərin maya dəyərinin aşağı salınması üçün inşaat işlərində yerli materiallardan istifadə edilir və yalnız muxtar respublikada istehsal olunmayan tikinti materiallarının idxalına icazə verilir. Eyni zamanda daxili bazarın qorunması diqqət mərkəzində saxlanılır.

Ötən dövr ərzində əldə edilmiş müsbət nəticələrlə yanaşı, muxtar respublikada fəaliyyət göstərən tikinti təşkilatlarının işində hələ də nöqsan və çatışmazlıqlar vardır. Aparılan quruculuq işləri zamanı keyfiyyət amilinin əsas şərt kimi qeyd olunmasına baxmayaraq, bəzi tikinti təşkilatları tikintinin və istifadə olunan tikinti materiallarının keyfiyyətinə laqeyd münasibət göstəriblər. Ona görə də tikintidə işlərin keyfiyyətinə nəzarət daha da artırılmalı və yenidən görüləcək bərpa işləri həmin təşkilatların öz vəsaiti hesabına aparılmalıdır.

Kollegiya iclasına Asəf Məmmədov yekun vurub.

## Maliyyə işçiləri ilk yarımildə görülən işləri müzakirə ediblər

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində keçirilmiş kollegiya iclasında maliyyə naziri Səbuhi Məmmədov çıxış edərək bildirib ki, 2017-ci ilin birinci yarımilində makroiqtisadi sabitliyin qorunması muxtar respublikada iqtisadi inkişafa şərait yaradıb, qazanılan uğurlar dövlət büdcəsinin gəlirlərinə öz təsirini göstərib. Belə ki, Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 2017-ci ilin birinci yarısında 31 milyon 631 min 900 manat proqnoza qarşı 34 milyon 907 min manat və ya 110,4 faiz icra olunub, 3 milyon 275 min 100 manat məbləğində büdcəyə əlavə vəsait daxil olub. Cari ilin ilk altı ayında büdcə gəlirlərinin 84,3 faizi və ya 29 milyon 427 min manatı Vergilər Nazirliyi, 8,8 faizi və ya 3 milyon 84 min manatı Dövlət Gömrük Komitəsi tərəfindən toplanılmış daxilolmalardan, 4 faizi və ya 1 milyon 377 min manatı dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən, 2,9 faizi və ya 1 milyon 19 min manatı isə vergi olmayan sair daxilolmalar hesabına olub.

Diqqətə çatdırılıb ki, 2017-ci ilin birinci yarımilində aparılmış maliyyə nəzarət tədbirləri nəticəsində, ümumilikdə, 207 min 725 manat məbləğində vəsait dövlət büdcəsinə bərpa edilib. Eyni zamanda dövlət müəssisə və təşkilatlarında aparılan yoxlamalar zamanı əmək intizamına əməl edilməməsi, əməkhaqqının artıq hesablanması, büdcə vəsaitlərindən istifadə qaydalarının pozulması, əsassız xərclərə səbəb olan qurğuların



istifadəsi hallarına qarşı qanunamüvafiq qaydada tədbirlər görülüb.

Qarşıdakı dövrdə görüləcək işlərə toxunan nazir vurğulayıb ki, Maliyyə Nazirliyinin müvafiq strukturları tərəfindən büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə nəzarət artırılmalıdır. Maliyyə vəsaitlərindən təyinatına uyğun şəkildə istifadə edilməsinə nəzarət olunmalı, büdcə təşkilatlarında xərclər üzrə müəyyən olunmuş limitdən artıq vəsaitlərin xərclənməsinin qarşısı alınmalı və əlavə xərclərə yol verən, borc yaradan təşkilatlar barədə qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görülməlidir.

Qeyd olunub ki, rayon maliyyə orqanları nazirliyin elektron nəzarət sistemləri ilə aparılan işin keyfiyyətini diqqət mərkəzində saxlamalı, maliyyə və mühasibatlıq işində operativliyin təmin olunması istiqamətində fəaliyyətlərini artırmalıdırlar.

Sonra çıxışlar dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Əsgər Əsgərov açaraq hesabat məruzəsi ilə çıxış edib.***

## Meliorasiya və irriqasiya tədbirlərinin miqyası genişləndirilir



Bildirib ki, cari ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasında əkinəyararlı torpaq sahələrinin su təminatını yaxşılaşdırmaq, yeni torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək, suvarılan torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq üçün komitənin kollektivi tərəfindən meliorasiya və irriqasiya işlərinin miqyası artırılaraq bütün mövcud imkanlar səfərbər edilib, istismar, təmir və tikinti işləri həyata keçirilib. Belə ki, muxtar respublika ərazisində yerləşən və 303,5 milyon kubmetr həcmə malik olan sututarlara 267 milyon kubmetr su ehtiyatı toplanılıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 144,6 milyon kubmetr suvarma suyu verilib, təkrar suvarma nəzərə alınmaqla 121 min 740 hektar ərazi suvarılıb.

Vurğulanıb ki, 2017-ci ilin yanvar-iyun ayları ərzində muxtar respublika ərazisində 36 kilometr yeni suvarma boru xətti çəkilib, 24 kilometr suvarma boru xətti əsaslı təmir olunub.

Komitənin balansında olan 101 ədəd nasos stansiyası və 824 ədəd subartezian quyusu da istismar edilməkdədir. Həmin nasos stansiyalarının mexaniki və elektrik avadanlıqları təmir edilib, etibarlı iş rejimi yaradılıb. Subartezian quyusunda isə 21 yeni nasos quraşdırılıb.

Qeyd olunub ki, hesabat dövründə müxtəlif ünvanlarda kollektorların lildən təmizlənməsi, açıq və qapalı drenaj çəkilməsi, qrunt sularının səviyyəsinin aşağı salınması, sel sularına qarşı istiqamətləndirici bəndlərin tikilməsi, kaptaj və kəhrizlərin təmir-bərpa olunması tədbirləri də davam etdirilib.

Məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Babək rayonunda keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, son illər Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı tikinti-quruculuq tədbirlərindən Babək rayonuna da pay düşüb. Cari ilin birinci yarısında Babək Rayon İcra Hakimiyyətinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. Binanın həyətində geniş abadlıq işləri aparılıb, gülkarlıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb. Payız kəndində tam orta məktəb binasının yenidən qurulması, kənd və xidmət mərkəzlərinin, su dəyirmanının tikintisi, kənddaxili yolların yenidən qurulması, yol kənarlarına suaxıdıcı kanalların çəkilişi davam etdirilir. Sərhəd kəndi olan Gərməçataqda isə tam orta məktəb binasının yenidən qurulması, kənd və xidmət mərkəzlərinin tikintisi, həmçinin kənddaxili yolların abadlaşdırılması işləri aparılır.

Rasim Hüseynov bildirib ki, ötən dövr ərzində Şıxmahmud-Xəlilli-Naxçıvan şəhər avtomobil yolunda da yenidənqurma işləri davam etdirilib. Nehrəm kəndindəki "İmamzadə" türbəsində təmir-bərpa işləri, həmçinin kəndin mərkəzində yeni salınan Bayraq Meydanının və parkın, Yarımca, Nəzərabad və Yuxarı Uzunoba kəndlərində müasir üslubda mərasim evlərinin tikintisi rayondakı irimiqyaslı quruculuq prosesindən xəbər verir.

Vurğulanıb ki, aqrar rayon olan Babəkdə kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Belə ki, rayonda 2017-ci ilin məhsulu üçün 16 min 172 hektar sahədə əkin aparılıb. Bundan başqa, 2017-ci ilin birinci yarısında "Naxçıvan Aqrolizinq" ASC-nin xətti ilə güzəştli şərtlərlə dövlət tərəfindən sahibkarlara 22 ədəd texnika və texnoloji avadanlıqlar lizinq yolu ilə satılıb.

Rayon ərazisində mal-qaranın cins tərkibini yaxşılaşdırmaq, məhsuldarlığı yüksəltmək məqsədilə 4 süni mayalama məntəqəsi fəaliyyət göstərir. Bəhs olunan dövrdə 760 baş iribuynuzlu malda süni mayalanma aparılıb, 450 baş cins buzov alınıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

Müşavirəyə rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov yekun vurub.

**Muxtar RZAZADƏ**

Culfa Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni İcra Hakimiyyətinin başçısı Şükür Babayev açaraq bildirib ki, 2017-ci ilin birinci yarısında rayonda bir sıra nailiyyətlər qazanılıb. Özəl sektorun inkişafına yaradılan şəraitin nəticəsidir ki, bu il Gülüstan kəndində mövcud heyvandarlıq məhsulları istehsalı sahəsinin, həmçinin quşçuluq təsərrüfatının genişləndirilməsi və təsərrüfatların səmərəli fəaliyyəti üçün yeni infrastrukturun yaradılması istiqamətində tədbirlər həyata keçirilib, 15 milyon 711 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib.

Qeyd edilib ki, bəhs olunan dövrdə 6 hektar sahədə yeni yaşıllıqlar salınıb, 12 hektar mövcud yaşıllıq sahəsində meşəbərpa işləri aparılıb, ümumilikdə, 8 min 325 ədəd müxtəlif meyvə ağacı əkilib.

"Heyvanların cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 avqust tarixli Sərəncamına əsasən süni mayalanma yolu ilə alınmış hər baş buzova görə 100 manat həcmində subsidiyanın müəyyən olunması bu sahəyə olan marağı artırıb. 2017-ci ilin 6 ayında yeni doğulmuş buzov üçün 46 min 700 manat dövlət yardımı ödənilib, həmçinin sahibkarlara 47 min 100 manat həcmində kredit verilib.



İcra başçısı deyib ki, rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına da şərait yaradıb. Cari ilin ötən dövründə Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin inzibati və yardımçı binaların, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsinin vaqon təmiri sexinin tikintisi davam etdirilib, Dizə kəndində kənd və xidmət mərkəzlərinin tikintisinə başlanılıb.

Təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə görülən işlərdən, əldə olunan uğurlardan bəhs edən Şükür Babayev qeyd edib ki, cari ilin ilk 6 ayının statistik təhlili rayonda iqtisadi fəaliyyətin bütün sahələrinin inkişafını əks etdirir. İcra başçısı çıxışında yol verilən nöqsanlara da toxunaraq onların qısa müddətdə aradan qaldırılmasının vacibliyindən danışıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

Müşavirəyə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev yekun vurub.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

* * *

"Naxçıvanqaz" İstehsalat Birliyində keçirilən iclasda birliyin direktoru Ramin İsmayılov çıxış edərək bildirib ki, bu ilin birinci yarısında əhalinin və digər istehlakçıların fasiləsiz, təhlükəsiz təbii qaz təchizatının təmin olunmasına xüsusi diqqət yetirilib. Muxtar respublika üzrə təbii qaz istehlakçılarının 1 iyul 2017-ci il tarixə ümumi sayı 87 min 481 olub. Muxtar respublikanın şəhər və rayonlarından 6 ay ərzində daxil olan müraciətlərə əsasən 283 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb.



Bəhs edilən dövrdə qaz təsərrüfatında korroziyaya uğramış yeraltı boruların yerüstü keçidlərlə dəyişdirilməsi, evlərin, sosial obyektlərin qazlaşdırılması, yoltikinti, yenidənqurma və abadlaşdırma işlərinin aparılması ilə əlaqədar olaraq istifadə edilən müxtəlif diametrli boruların uzunluğu 70 min 872 paqonometr olub.

Muxtar respublikanın şəhər, rayon Qaz İstismar idarələrinin qəza dispetçer xidmətlərinə istər əhali, istərsə də qeyri-əhali təbii qaz istehlakçıları tərəfindən qaz sızması, qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər bu kimi səbəblərə görə bu ilin birinci yarımili ərzində 8382 ədəd çağırış daxil olub. Çağırışlar vaxtında cavablandırılıb, bütün işlər təlimata uyğun yerinə yetirilərək təhlükəsiz və fasiləsiz təbii qazın nəqli bərpa olunub. Naxçıvan şəhərində 1695 smartkarttipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb.

Bildirilib ki, bu ilin birinci yarısında qəza hallarının aradan qaldırılmasında operativliyin təmin edilməsi, yeni qaz xətləri çəkilərkən mövcud standartların tələblərinin gözlənilməsinə diqqətin artırılması, yaradılmış mal və material ehtiyatlarından səmərəli istifadə edilməsi, işlənən materialların yerinə yenilərinin alınıb gətirilməsi diqqət mərkəzində saxlanılıb.

"Naxçıvanqaz" İstehsalat Birliyi əhali qrupunun, idarə, təşkilat və müəssisələrin davamlı və dayanıqlı təbii qazla təminatı üçün qaz təchizatı sistemində texniki baxış tədbirlərini davam etdirir.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Səbuhi HÜSEYNOV**

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda bu ilin 6 ayı ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. İclası fondun sədri Əli Quliyev açaraq məruzə edib.*

Bildirilib ki, fond verilən tapşırıqların yerinə yetirilməsi üçün muxtar respublika ərazisindəki təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, bütün hüquqi və fiziki şəxslərin məcburi dövlət sosial sığortasına cəlb edilməsi, əmək pensiyalarının düzgün təyinatı və ödənişinin aparılması, eləcə də fərdi uçot sisteminin qurulması istiqamətində 2017-ci ilin 6 ayı ərzində bir sıra işlər görüb. Bu dövrdə daxil olan vəsait nəzərdə tutulan məbləğdən 6 milyon 724 min 690 manat, yaxud 25,4 faiz çox olub.

Hesabat dövründə büdcədən maliyyələşən təşkilatlar və bu təşkilatlarda işləyənlər üzrə, dövlət büdcəsindən ayrılan subsidiya hesabına və büdcə təşkilatlarının büdcədənkənar vəsaitləri üzrə 23 milyon 17 min 690 manat məcburi dövlət sosial sığorta haqları büdcə təşkilatlarından daxil olub ki, bu da nəzərdə tutulduğundan 4 milyon 919 min 690 manat, yaxud 27,2 faiz çoxdur. Digər sığortaedənlərdən 10 milyon 181 min manat vəsait daxil olub ki, bu da nəzərdə tutulduğundan 1 milyon 805 min manat, yaxud 21,5 faiz çoxdur. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda mövcud olan artım muxtar respublikada əmək pensiyaları və müavinətlərin vaxtlı-vaxtında maliyyələşdirilməsinə



əlverişli şərait yaradıb. Ümumiyyətlə, bu ilin 6 ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu büdcəsinin xərcləri 66 milyon 112 min 481 manat icra olunub.

Qeyd edilib ki, "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 aprel tarixli Sərəncamına müvafiq olaraq, muxtar respublika üzrə bu kateqoriyadan olan pensiyaçılara, ümumilikdə, 564 min 500 manat vəsait ödənilib. Fondun yerli orqanları tərəfindən 1045 nəfərə yaşa, 229 nəfərə əlilliyə, 367 nəfərə isə ailə başçısını itirməyə görə, ümumilikdə, 1641 nəfərə əmək pensiyası təyin edilib.

Məruzə ətrafında çıxışlar olub.

İclasa Dövlət Sosial Müdafiə Fondunun sədri Əli Quliyev yekun vurub.

**N.ƏSGƏROV**

*İstehsal müəssisələri*

# Keyfiyyətli məhsul istehsalına yerli xammal hesabına nail olunur

***Muxtar respublikada mövcud olan əlverişli biznes mühiti yeni istehsal sahələrinin yaranmasına, fəaliyyəti dayanan müəssisələrin yenidən işə başlamasına imkan verib. Bununla həm daxili tələbat ödənilir, həm də xaricə valyuta axınının qarşısı alınır.***

Son illərdə əhalinin maddi vəziyyətinin yaxşılaşması nəticəsində fərdi yaşayış evlərinin tikintisi, tikilən evlərin təmiri işləri xeyli genişlənib. Təmir işlərində istifadə olunan materiallara tələbat artıb. Əvvəllər bu materiallar xarici ölkələrdən gətirilirdi. Bu da, təbii ki, həm vaxt itkisi yaradır, həm də əlavə xərclərə yol açırdı. Son illərdə bu istiqamətdə xeyli irəliləyişlərə nail olunub. Hazırda muxtar respublikada tikinti materiallarına olan tələbatın əksər hissəsi yerli istehsal müəssisələri hesabına ödənilir. Bu gün muxtar respublikamızda tikinti materiallarının istehsalı ilə məşğul olan çox sayda müəssisə fəaliyyət göstərir. Həmin müəssisələrdən biri də "Azelektrod" Məhdud Məsuliyyətli Cəmiyyətidir.






Naxçıvan şəhərinin Şəhriyar küçəsində yerləşən müəssisə ilə yaxından tanış olmaq, iş prosesi ilə maraqlanmaq üçün ötən günlərdə yolumuzu adıçəkilən ünvandan saldıq. Müəssisənin rəhbəri Zamin Abbasovla söhbət zamanı bildirdi ki, əvvəllər müəssisə yaratmaq fikri olsa da, bu arzusu maliyyə problemlərinə görə bir az gec həyata keçib. Məqsədinə dövlət qayğısı nəticəsində nail olub. Belə ki, ötən il aprel ayında müəssisə yaratmaq haqqında layihə hazırlayaraq Sahibkarlığa Kömək Fonduna təqdim edib, bu məqsədlə fond tərəfindən ona 480 min manat vəsait verilib. Müəssisədə istehsal prosesinə isə 2016-cı il noyabr ayında başlanılıb. Burada istehsal olunan məhsullar "Az-NaxKim" əmtəə nişanı ilə satışa buraxılır. İstifadə olunan avadanlıqlar Türkiyə Respublikasından alınıb gətirilib. Müəssisədə tələbata uyğun olaraq gündəlik 30-40 ton məhsul istehsal edilir. İstehsal prosesi mərhələli şəkildə aparılır. İlk olaraq xüsusi avadanlıq vasitəsilə qum qurudulur, sonra narın ələklərdən keçirilir və aparatla qarışdırılır. İkinci mərhələdə əlavələr qatılır, xüsusi aparat vasitəsilə kisələrə doldurulur.

Sevindirici haldır ki, məhsulun xammala olan tələbatı, əsasən, muxtar respublikamızın daxili imkanları hesabına ödənilir. Məhsullar kafel və metlax yapışdırıcısı, sərtləşdirici, məsaməli beton blok yapışdırıcısı, təmir suvağı, sement əsaslı hazır suvaq, aralıq doldurma qarışığı, mərmər və qranit yapışdırıcısı və sair növlərə ayrılır. Məhsulların keyfiyyətinə müəssisə tərəfindən zəmanət verilir, xarici məhsullara nisbətən 30-40 faiz sərfəli qiymətə satışa çıxarılır.

Sahibkar onu da bildirdi ki, müəssisədə elektrod istehsalı da həyata keçirilir, xammal Türkiyədən alınıb gətirilir. Əvvəllər bu tikinti materialı xarici ölkələrdən gətirilir, baha qiymətə istehlakçılara satılırdı. Ancaq elektrod istehsalına başlanmasından sonra daxili bazarda bu məhsula olan tələbat əhəmiyyətli dərəcədə dəyişib. "Azelektrod" əmtəə nişanı ilə satılan məhsullara bu gün tələbat çoxdur. Çünki tikinti işlərinin həcmi böyükdür və qaynaq işlərində elektroda tələbat getdikcə artır. Türkiyə istehsalı olan və dövlət dəstəyi hesabına alınıb gətirilən, müəssisədə quraşdırılan avadanlıqlar rəqabətqabiliyyətli məhsul istehsalına imkan verir.

Muxtar respublikada sahibkarlara göstərilən qayğıya görə dövlətimizə minnətdarlıq edən Zamin Abbasov dedi ki, bundan sonra da məhsul istehsalında kəmiyyətdən daha çox keyfiyyətə üstünlük veriləcək, ixracyönümlü məhsulların istehsalına çalışacaqlar.

**Nail ƏSGƏROV**

***Ərazicə kiçik, mənəviyyatca böyük olan Naxçıvan Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biridir. Burada insanlar sivilizasiyanın başlandığı tarixdən etibarən – 500-300 min il bundan əvvəl yaşamışlar. Beş min il bundan əvvəl Naxçıvan şəhər mədəniyyətinin formalaşması Azərbaycanın bu qədim torpağında sivilizasiyanın inkişafının ən mühüm göstəricisi hesab olunur. Naxçıvan həm də Azərbaycanın dövlətçilik tarixinə mühüm töhfələr vermiş, Azərbaycan türkləri min illər boyu burada ardıcıl həyat sürmüş, böyük dövlətçilik ənənələrinin əsasını qoymuşlar.***

***Tarixi abidələrimiz milli sərvətimizdir***

# Naxçıvandakı türk-islam mədəniyyəti abidələri qədim tariximizi yaşadan nadir memarlıq nümunələridir

Naxçıvan antik və orta əsrlər dövrünə aid mədəniyyət nümunələri və tarixi abidələrlə – qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir.

Azərbaycan türkləri İslam dinini qəbul edənə qədər Naxçıvanda böyük mədəniyyət və özünəməxsus adət-ənənələr sistemi yaratmışlar. İslam dininin qəbulundan sonra isə Naxçıvan memarları İslam memarlıq ənənələrindən də bəhrələnmiş, bir-birindən dəyərli türk-islam mədəniyyəti nümunələri ilə tarix və mədəniyyətimizi daha da zənginləşdirmişlər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***"Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq son illər muxtar respublikada 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Bu abidələrdən 70-ə yaxını əvvəlki görkəmi saxlanılmaqla bərpa olunmuşdur. Möminə xatın və Gülüstan türbələrinin, Xanəgah Memarlıq Kompleksinin, Ordubad Qeysəriyyəsinin, Came məscidinin, Şərq hamamının, Zaviyə-Mədrəsə binasının, Xan sarayının, imamzadələrin və buxxanaların tarixi görkəmi özünə qaytarılmışdır. Hazırda türk-islam mədəniyyətinin nümunələrindən olan Qarabağlar Türbə Kompleksində, Yengicə hamamında və Nehrəm İmamzadəsində bərpa işləri aparılır.

Naxçıvanı qarış-qarış gəzdikcə bu yurdda ucaldılan saysız-hesabsız mədəniyyət nümunələrinin, türk-islam mədəniyyətinin daşıyıcısı olan abidələrin şahidi olursan. Belə abidələrdən biri Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Naxçıvan şəhərinin cənub-şərq tərəfində 1162-ci ildə inşa edilən Yusif Küseyir oğlu türbəsidir. El arasında "Atababa günbəzi" kimi də tanınan abidə yeraltı sərdabədən və yerüstü türbədən ibarətdir. Naxçıvanın türk-islam mədəniyyətinin ən dəyərli nümunələrindən olan Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qülləvari türbələri içərisində yeganə abidədir ki, üst piramidal örtüyü zəmanəmizədək tamamilə salamat vəziyyətdə gəlib çatmışdır. Abidənin qurşağında "Qurani-Kərim"in "Ali İmran" surəsindən 15-17-ci ayələr, tağı üzərində isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" sözləri yazılmışdır.

XII əsrdə böyük memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin Atabəy Eldənizin xanımı Möminə xatının şərəfinə ucaltdığı türbə isə Şərq memarlığı tarixində qızıl səhifədir. Yüz illər boyunca bu qızıl səhifə səyyahları, salnaməçiləri, Monpere, Fren, Yakobstal kimi məşhur memar və şərqşünasları düşündürüb. Möminə xatın həm də qadın, ana adının ucalığında dayanan zərif bir məhəbbət əfsanəsi, sevgi dastanıdır. Ona görə də akademik Alpatov "Ümumdünya incəsənəti tarixi" adlı monoqrafiyasında Möminə xatın türbəsini monumentallıqla zərifliyin möcüzəsi adlandırıb və memarlıq tarixində tutduğu mövqeyi yüksək qiymətləndirərək yazıb: "Qeyri-adi memarlıq duyğusuna, kompozisiyasının klassik kamilliyinə və işlənməsinə görə XII əsrdə Avropada belə abidəyə təsadüf etmək mümkün deyil. Naxçıvan türbəsindən klassik Şərq ədəbiyyatının ən yaxşı əsərləri – Firdovsinin "Şahnamə" epopeyasında, Nizaminin "Leyli və Məcnun" poemasında olduğu kimi insanpərvərlik nəfəsi gəlir".

Qədim köklərə, ulu qaynaqlara malik Naxçıvan memarlıq məktəbi XII əsrdə inkişaf edərək əsl sənət zirvəsinə ucalıb. Həmin dövrdə Əcəmi sənəti bütün dünyaya səs salmış,Yaxın Şərq və Orta Asiya memarlıq sənətinin inkişafına mühüm töhfələr vermişdir. Əcəmi qüdrətinin bəhrəsi olan Möminə xatın türbəsi mükəmməl sənət nümunəsi kimi dünya memarlığında silinməz iz qoymuşdur. Türbəyə "Qurani-Kərim"dən ayələr həkk olunub. "Biz gedirik yalnız qalır ruzigar, biz ölürük əsər qalır yadigar" sözləri isə Möminə xatın türbəsinin baştağında əbədiləşən dərin bir hikmətdir.

Belə uğurlu sənət yolu Naxçıvan ərazisində abidə-abidə, qala-qala irəliləyir, xalqımızın daş yaddaşına çevrilir, elimizin-obamızın könül mahnısı, ürək döyüntüsü kimi əbədiləşir. Qədim qala divarları, daş sədlər, bürclər, səmanın qəlbini dələn minarələr xalqımızın əyilməz vüqarı kimi yüksəlir.

XII əsrdə Culfa yaxınlığında ucaldılan Gülüstan türbəsi xüsusilə diqqət çəkir. Əcəmi ənənələrini davam etdirən bu nadir sənət incisi naxış kompozisiyasının kamilliyi, özünəməxsusluğu ilə heyrət doğurur.

Orta əsrlər Azərbaycan tarixinin əvəzsiz yadigarı olan Qarabağlar türbəsi memarlıqda uğurlu yol, yeni nəfəsdir. Bu orijinal sənət əsəri kompozisiya dinamikliyi, monumentallığı, işıqlı və zərif naxışları, dekorativliyə ciddi meyli ilə sənətşünasları həmişə düşündürüb.

Naxçıvanın türk-islam mədəniyyəti abidələri içərisində orta əsr Azərbaycan memarlığının nadir nümunələrindən sayılan buxxanalar da xüsusi yeri var.

Özünəməxsus memarlıq xüsusiyyətləri ilə seçilən belə abidələrdən biri Naxçıvan şəhərinin cənub tərəfində, İmamzadə kompleksinin yaxınlığında yerləşən XII-XIV əsrlərə aid buzxanadır. Bununla yanaşı, XIV əsr abidəsi olan Ordubad şəhər buzxanası və tarixi XIX əsrə aid edilən Cəlilkənd buzxanası keçmişdə havaların isti vaxtlarında əhalinin buza olan tələbatını ödəmişdir. Bu buzxanalar ötən əsrdə məişətdə soyuducuların istifadənin genişlənməsi nəticəsində fəaliyyətini dayandırmışdır. Zaman keçdikcə güclü aşınmaya məruz qalmış buzxana kompleksləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı və qayğısı ilə bərpa olunmuşdur.

Naxçıvan Muxtar Respublikası ərazisində inşa olunmuş türk-islam mədəniyyəti abidələrinə mülki tikililər, o cümlədən saraylar da daxildir. Belə saraylardan biri Naxçıvan xanlarının yaşayış evi – Xan sarayıdır. Sarayı XVIII əsrin sonlarında Naxçıvan xanı, görkəmli dövlət xadimi Kalbalı xan Kəngərli tikdirib.

VII əsrdən sonra Naxçıvan ərazisində müxtəlif sufi təriqətlərinə mənsub mərkəzlər, o cümlədən zaviyələr, həmçinin savadlı kadrlara olan tələbatı ödəmək məqsədilə mədrəsə binaları da inşa olunmuşdur. Zaviyələr həm ibadət və zikr yerləri, həm də təhsil mərkəzləri olduğundan Zaviyə-mədrəsə binaları da yaradılırdı. Naxçıvanda xüsusi memarlıq üslubunda inşa edilən Naxçıvanın türk-islam mədəniyyəti nümunələri sırasında özünəməxsus memarlıq xüsusiyyətlərinə malik olan Zaviyə-mədrəsə binası xüsusi yer tutur.



Naxçıvan ərazisində orta əsrlər zamanı yaradılan dini-memarlıq abidələri sırasında sufiliklə bağlı mərkəzlər – xanəgah kompleksləri də mühüm əhəmiyyətə malikdir. Belə komplekslərdən biri XII əsrə aid Xanəgah Memarlıq Kompleksidir. Həmin abidə-kompleks Culfa rayonunun Xanəgah kəndindən şimal-şərq tərəfdə Əmir Teymura qarşı müqavimətin əsas istinadgahı olan Əlincəqalanın yaxınlığında yerləşir. Kompleks türbə, məscid və digər tikililərdən ibarətdir. Türbə memarlıq quruluşuna görə XII əsrə aid edilir. Türbədəki qəbirdə XIV əsrdən etibarən Azərbaycanda geniş yayılan hürufilik təliminin banisi Fəzlullah Nəimi dəfn edilmişdir.

Türk-islam mədəniyyəti abidələrinin özünəməxsus nümunələrindən biri də hamamlardır. Naxçıvan şəhərinin mərkəzində yerləşən Şərq hamamı XVIII əsrdə Şərq memarlığı üslubunda inşa edilib. Şərur rayonundakı XVIII əsrə aid edilən Yengicə hamamı, eyni zamanda XVIII-XIX əsrlərə məxsus Ordubad hamamı əhalinin həyatında mühüm rol oynamış, paklanma yeri olmaqla bərabər, həm də insanların görüş, söhbət, istirahət və müalicə yerinə çevrilmişdir.

Naxçıvanda yaradılan memarlıq abidələrindən böyük bir qismini ibadət yerləri – məscidlər təşkil edir. Müsəlmanların ibadət və təhsil yerləri kimi yaranan dini ocaqlardan biri də Naxçıvan şəhər Came məscididir. İslamın əvvəllərindən mövcud olan və XVIII əsrdə Məhəmməd Təqi tərəfindən təmir olunan, xalq arasında "Şəhər məscidi" kimi tanınan Came məscidi sovet hakimiyyəti illərində, ateizm təbliğatına geniş rəvac verildiyi bir dövrdə Naxçıvanda fəaliyyət göstərən yeganə məscid olub. Ordubad Came və Qırx Kimsənə məscidləri, Babək rayonunun Cəhri kəndindəki Cilovxanlı məscidi də sovet hakimiyyətindən əvvəlki dövrlərdə bölgənin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamışdır. Müstəqillik dövründə Heydər məscidi, Nehrəm kənd məscidi, Şərur məscidi, Əbrəqunus və hazırda Naxçıvan şəhərində tikintisi davam edən yeni məscid kompleksi islami dəyərlərə olan bağlılığı nümayiş etdirir.

Muxtar respublikada tarixi abidələrin tədqiqi və beynəlxalq miqyasda təbliği istiqamətində həyata keçirilən ardıcıl tədbirlər də artıq öz bəhrəsini verir, Naxçıvan dünyada ilkin yaşayış məskənlərindən biri kimi qəbul edilir. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan", 2009-cu ildə "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", 2012-ci ildə "Naxçıvan: ilkin şəhər və Duzdağ", 2016-cı ildə "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzularında beynəlxalq simpozium və konfransların keçirilməsi, bu mənada, mühüm əhəmiyyətə malikdir. Bu elmi tədbirlər alimlərimizin xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixinə, arxeologiyasına, etnoqrafiyasına və folkloruna dair tədqiqatlar aparmasına, ekspedisiyaların təşkil olunmasına, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələrin nəşr edilməsinə əsaslı təkan vermiş, beşminillik tarixə malik Naxçıvan şəhər mədəniyyəti tədqiqat mövzusuna çevrilmişdir. Aparılan tədqiqatların nəticəsi və elmi sübutu olaraq nəşr olunan minlərlə kitab və ensiklopediyalar da Naxçıvan tarixi ilə yanaşı, həm də bu qədim diyardakı abidələrin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Xüsusilə Azərbaycan və ingilis dillərində nəşr olunan "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan: türk-islam mədəniyyəti abidələri" kitabları Naxçıvandakı türk-islam mədəniyyəti abidələri haqqında dolğun məlumat verən dəyərli elmi ədəbiyyatlardır.

Naxçıvanın türk-islam abidələri bu qədim yurdun tarixi keçmişini özündə yaşatmaqla bərabər, həm də müasir dövrdə turizm potensialının artmasına xidmət edir. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər üzrə səyahət turizminin ən ideal məkanlarındandır. Naxçıvana kimin ayağı dəyirsə, ilk ifadələri bu olur: Yurdunuz memarlıq muzeyidir. Türbələr, məscidlər, Əlincə qüdrətli qalalar. Xudafərin ümidli körpülər, XII-XIV əsrləri əhatə edən qədim imamzadələr, karvansaralar...

Yaddaşımızın heykəlləri olan bu abidələrlə göz-gözə dayanında miniatür qəlbili, xalça duyğulu naxışlarına, rənglərinə baxanda yüz illərin, min illərin xatirəsinə dalırsan.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar".***

Bir sözlə, Naxçıvanda tarix təkcə öyrənilmir, həm də qorunaraq yaşadılır. Tarixi yaşadanları isə tarix də yaşadacaqdır.

**Vaqif AĞALAROV**
***Naxçıvan televiziyasının baş redaktoru***

# Kəngərli rayonunda istedadlı qadınların əl işlərindən ibarət sərgi-satış təşkil edilib

***Kəngərli rayonunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Kəngərli Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonun istedadlı qadınlarının əl işlərindən ibarət sərgi-satış təşkil olunub.***

Sərginin açılışında Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək bildirib ki, Azərbaycan qadını tarixboyu cəmiyyətin aparıcı qüvvəsi kimi ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib, öz iradəsi, mərdliyi, sədaqəti ilə seçilib, adətənənələrimizin, milli və mənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynayıb. Bu gün də Azərbaycan qadınları öz dərin zəkası ilə xalqa və cəmiyyətə fədakarcasına xidmət edir, müstəqil respublikamızın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının inkişafına öz töhfələrini verirlər.



Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət qadın siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Göstərilən dövlət qayğısı nəticəsində muxtar respublikanın hər yerində olduğu kimi, Kəngərli rayonunda da qadınların həyatın bütün sahələrində fəal iştirakının təmin olunması üçün əlverişli şərait yaradılıb.

Vurğulanıb ki, rayonda yaşayan istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışın təşkil olunmasında məqsəd qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi gənclərə aşılamaq və yaşatmaqdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək deyib ki, milli varlığımızın ifadəsi olan çoxəsrlik ailə dəyərlərimizin, adət-ənənələrimizin yaranmasında Azərbaycan qadınının misilsiz xidmətləri olub. Bu amil daim yüksək qiymətləndirilir, bu gün həyata keçirilən dövlət qadın siyasətinin tərkib hissəsi olaraq istedadlı qadınların fəaliyyətlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Bu gün muxtar respublikada mövcud olan şərait, mədəni mühit qadınların zəngin potensialını gerçəkləşdirməsi üçün əlverişli zəmin yaradır. Bu, daimi səciyyə daşımaqla, bütövlükdə, qadınların cəmiyyətdə layiqli mövqeyini hər zaman qoruyub saxlamağa imkan verir. Əminik ki, Kəngərli rayonunun qadınları yaradılan bu imkandan istifadə edərək, bundan sonra da adətlərimizi, ailə dəyərlərimizi yaşadacaq, milli dəyərlərimizin qorunmasına töhfələrini verəcəklər.

İstedadlı qadınlardan Aysel Həsənli çıxış edərək göstərilən diqqət və qayğıya görə Kəngərli rayonunun qadınları adından dərin minnətdarlığını bildirib.

Sonra sərgi-satışa baxış olub.

Sərgi-satışda rayon üzrə 35 qadının 370-dək əl işinin satışı təşkil edilib. Sulu və yağlı boya ilə işlənən tablolar, milli geyimlər, toxuculuq və dekorativ-tətbiqi sənət nümunələri maraqla qarşılanıb.

**Babək İSMAYILOV**

*Mütəxəssis sözü*

## Ən böyük giləmeyvə – qarpızın faydaları haqqında

***Yay mövsümünün əvəzedilməz giləmeyvələri içərisində qarpız xüsusi yer tutur. Giləmeyvə deyəndə gilas, gilənar, quşüzümü, moruq, çiyələk yada düşür. Amma qarpızın da ən böyük və dadlı giləmeyvə olduğunu unutmayaq. Qarpızın vətəni Cənubi Afrikadır. Elə indi də Kalaxari səhrasında balaca, yumru meyvələri olan yabanı qarpıza rast gəlmək olur. Bağçaçılıq işlərinə aid kitablarda qarpızla bağlı məlumatlar 1500-cü illərə təsadüf edir. O vaxtdan qarpız hər kəsin sevimli qidasına çevrilmişdir. Qeyd edək ki, qarpız araba ilə daşındığından uzaq ölkələrdən gətirilənə qədər yolda xarab olur, itirilirdi. Bu səbəbdən çar Alekseyin gizli əmrinə görə, Orta Asiya, Azərbaycan və Həştərxandan toxum və qarpız əkib-becərən ustalar Moskvaya gətirildi, Moskva ətrafında parnik üsulu ilə qarpız yetişdirilməyə başlandı. Hazırda Ukrayna, Moldova, Qazaxıstan, Özbəkistan, Cənubi Qafqazda minlərlə hektar ərazidə qarpız əkilir. Orta Asiya və Azərbaycan qarpızının şöhrəti dünyaya yayılmışdır. Naxçıvan Muxtar Respublikasında da qarpızın yetişdirilməsi üçün ideal şərait mövcuddur.***



“Bağça meyvələrini bu çeşiddə, bu dadda heç yerdə görmədim. Bunlar: alma, heyva, əncir, qovun və qarpızdır”, – bu sözlər 300 il bundan əvvəl Cənubi Qafqaza səyahət edən alman alimi Adam Oleariyə aiddir.

Qarpızın kökləri rütubəti çəkmək qabiliyyətinə malikdir. Onun yarpaqları da gün ərzində bir neçə litr suyu buxarlandıra bilir. Bu isə bitkini müəyyən temperatura qədər soyudur və qidalandırır. Qarpız bostanında alaq otları olmur, çünki onlar qarpızla rəqabətə davam gətirə bilmirlər.

Biz qarpızın 3 təbəqədən ibarət olduğunu (yaşıl, ağ, qırmızı) təsəvvür edirik. Nəzəri olaraq bu təsəvvür doğrudur, ancaq yalnız qabıqda səkkiz-doqquz təbəqə var. İlk təbəqə xlorofilə malikdir, sonrakı təbəqə epiderma, bir qədər yuxarı qat meyvəyə parlaqlıq verən ağır zireh qat adlanır. Daha sonra bütün dairə boyu dadlı, rəngsiz hüceyrə yerləşir. Yeyilən hissə meyvənin ləti adlanır.

Bu gün 500-ə qədər qarpız növü mövcuddur. Qeyd etmək lazımdır ki, bostanlarda qarpız yalnız süfrə üçün deyil, həm də yem bitkisi kimi yetişdirilir. Ev heyvanlarını qidalandırmaq məqsədilə əkilən yem bitkisi öz məhsuldarlığı ilə fərqlənir. Bütün bostan bitkiləri digər növlərin tozcuqları ilə mayalandığından onlar süfrə qarpızları ilə yanaşı əkilmir. Ən böyük giləmeyvənin çəkisi 15-20 kiloqrama çatır. Amerika seleksiyaçıları 78 kiloqramlıq qarpız yetişdirməyə nail olmuşlar.

XIII əsrin sonlarında Cənubi Qafqaza səyahət edən məşhur bioloq, akademik Lepexin qeyd etmişdir ki, az kaloriliyinə baxmayaraq, qarpız ən dadlı və faydalı giləmeyvədir. Digər bostan bitkiləri: pomidor, xiyar və sair ilə müqayisədə qarpızın hər yüz qramına 27 kkal düşür. Bu, onun meyvələrində şəkərin olması ilə əlaqədardır. Hər bir qarpızda 400-500 qram şəkər var. Lətin onda doqquzu şəkərin, yəni qlükoza, fruktoza və saxarozanın payına düşür. Pəhriz gözləyənlərin nöqteyi-nəzərinə görə, qarpız yetişən zaman meyvələrdə fruktoza və qlükoza üstünlük təşkil edir, uzun müddət saxlanıldıqda saxaroza əmələ gəlməyə başlayır. Qarpızda bütün meyvələrdə olduğu kimi, azot maddələri, pektinlər, sellüloza, üzvi turşular var. Amma onların hamısının miqdarı çox cüzidir, məsələn, sellüloza 0,04 faiz təşkil edir. Bu səbəbdən qarpız dietik şəkərli məhsul hesab edilir. Şəkər xəstələri də qarpızdan istifadə edə bilərlər.

Qarpız lətinin tərkibində qələvi maddələrin olması çox əhəmiyyətlidir. Məlumdur ki, bizim əsas qida məhsullarımız – ət, balıq, yumurta, çörək, pendir və sair mədədə turş reaksiya verir. Ona görə də bəzi hallarda orqanizmdə turşu artığı yaranır, bu isə mübadilə proseslərinə yaxşı təsir etmir. Məsələ ondadır ki, qarpız yalnız susuzluğu yatırmır, o həm də orqanizmin turşu-əsas tarazlığını bərpa edir.

Qarpızda bunlardan əlavə, dəmirin mənimsənilən duzları da var. Onların miqdarına görə qarpız meyvə və tərəvəzlər arasında üçüncü yeri tutur. Yalnız kahı və ispanaqdan geri qalan qarpız bu zəmində kartofu iki dəfə qabaqlayır. İspanağın tərkibində dəmirin miqdarı çox olsa da, tərkibinə görə o, qarpızdan geri qalır. Çünki ispanaq yalnız bişirilmiş halda yeyildiyindən onun tərkibində dəmirin duzlarının bir hissəsi həll olmayan birləşmələrə çevrilir.

Nəhayət, qarpızda olan vitaminlər haqqında bir qədər ətraflı danışaq. Vitaminlər qarpızda o qədər də çox deyil. Bununla belə, qarpızın tərkibində askorbin turşusu, karotin, fol turşusu var, bu da onun qidalılığını artırır.

Qarpızın yüksək kaloriliyə malik olmaması, bir növü, pəhriz saxlayanlar üçün sərfəlidir. Kökəlmə və ürək-damar xəstəliklərindən əziyyət çəkənlərə qarpız yemək məsləhət görülür. Xalq təbabətində qarpızın sidikqovucu təsirindən bəhs edilir. Bu xassənin aşağı kaloriliklə birləşməsi bir sıra xəstəliklərdə (böyrək, ciyər, duzlaşma və sair) qarpızdan istifadənin əhəmiyyətini artırır.

Beləliklə, əsrlərin dərinliklərindən gələn məlumatlarda qarpızın müalicəvi təsiri öz təsdiqini tapmışdır. Artıq mədəni qarpızın toxumsuz növləri də yetişdirilir. XIX əsrdə yapon genetiki X.Kixara tərəfindən toxumsuz – tripolid qarpız növü icad edildi. Bu qarpız növündə təbiətin adi növə bəxş etdiyi ikili xromosom dəsti üçlü dəstlə əvəz olunmuşdur. Müasir yapon qarpızı öz əcdadlarından yüksək məhsuldarlığı və şirinliyi ilə fərqlənir. Orta Asiya, Bolqarıstan və İranda da toxumsuz qarpız yetişdirilir. Qeyd etmək lazımdır ki, qarpız toxumlarının tərkibində asan çıxarıla bilən 25 faiz yağ var. Dadına görə zeytun yağını xatırladır. Mütəxəssislər qarpız yağını tibbi məqsədlərlə istifadə edirlər.

*Beləliklə, bostan bitkiləri içərisində şöhrət çələngini əsrlər boyu özündə saxlayan qarpız düzgün əkilib-becərilərsə, süfrələrimizin ən qiymətli və sevimli qidası olaraq qalacaqdır.*

**Fizzə MƏMMƏDOVA**
***kimya üzrə fəlsəfə doktoru***

## Şahmatçımız beynəlxalq turnirdə böyük uğura imza atıb

Bakı şəhərində Azərbaycanın məşhur şahmatçısı, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr edilmiş beynəlxalq şahmat turniri keçirilib.

Turnirdə ölkəmizin şahmatçıları ilə yanaşı, Rusiya və Birləşmiş Ərəb Əmirliklərindən gəlmiş zəka sahibləri də iştirak ediblər. Ümumilikdə, 9 gün davam edən beynəlxalq turnirdə 72 şahmatçı qələbə uğrunda mübarizə aparıb. Yarış İsveçrə sistemi üzrə 9 turdan ibarət olub. Bu yarışda Ordubad şəhər 1 nömrəli tam orta məktəbin V sinif şagirdi Hüseyn Seyid də uğurla çıxış edib. Zəka sahibimiz 9 mümkün xaldan 7 xal toplayaraq üçüncü olub.

Qaliblər turnirin təşkilatçıları tərəfindən diplom, medal və müxtəlif hədiyyələrlə mükafatlandırılıblar.

**Xəbərlər şöbəsi**

***Maddi və mənəvi potensialını qoruyub saxlamaq, inkişaf etdirmək üçün insan, ilk növbədə, fiziki cəhətdən sağlam olmalıdır. Yəni sağlamlıq təkcə idmanla məşğul olan insanlara deyil, hər kəsə lazımdır. Bu həm də birbaşa psixoloji durumla da bağlıdır. Sağlam düşüncəyə, psixologiyaya sahib fərd özünün hərtərəfli inkişafına diqqət yetirir, həyat mübarizəsində hər zaman qalib olur.***

*Sağlam həyat*

## İdman sosial bir institut və mədəniyyət kimi formalaşır

Psixologiyası güclü olan insanlar, xüsusilə idmançılar digərləri üçün də əlavə motivasiya mənbəyi hesab edilirlər. Təsadüfi deyil ki, məşqçilər də yarışqabağı idmançının əhval-ruhiyyəsini öz emosional çıxışları ilə yüksəltməyə üstünlük verirlər. Komanda şəklində yarışda hətta bir idmançının belə, qətiyyətsiz, müsbət mənada, həyəcansız olması bütün komandanın mübarizə ruhuna təsir göstərir. Məşqçilərin fikrincə, idmançı sakit və həyəcansızdırsa, diqqətini intensiv şəkildə bir yerə yığmağa qadir olmayacaq.

Bu mənada, hiss, həyəcan fiziki hazırlığın ən ali ünsürlərindən hesab edilir. Bu amillər insan psixologiyasının yüksək dərəcədə hazır olması ilə yanaşı, həm də onun sosialyönlü inkişafına təsir göstərir. Necə? Çox vaxt idmanı həyat üçün vacib olan institutlar sırasına daxil etmirlər. Lakin sosial institutların tərəfdarları iddia edirlər ki, hər bir sosial təzahürə müvafiq bir sosial institut var. O zaman belə bir sual formalaşır: bəs idmanda sosial institut nədir? Harlod Zborovskinin sosiologiya üzrə dərsliyində mülkiyyət, bazar, din, ideologiya, bölgü və istehlak, ticarət, demokratiya, səhiyyə, mədəniyyət, incəsənət, ənənə və kütləvi informasiya vasitələri ilə yanaşı, idmana da geniş yer verilib. Qeyd edilib ki, sosial idman institutunun əsas şərtlərindən biri insanların davranışını nizamlayan spesifik sosial normaların və təlimatların olmasıdır. Bura isə müxtəlif məşq qaydaları, müəllim-tələbə münasibətlərinin tənzimlənməsi, idmanı necə etməyin yolları daxil edilib. Sosial institutun ən vacib şərti isə həmin institutun dəyərlərinin yerləşdiyi dövlətin dəyərlərinə zidd olmamasıdır.

Bununla yanaşı, sosial idman institutu gənclərin formalaşmasına müxtəlif yöndə təsir göstərir. Bu gün Naxçıvan Muxtar Respublikasında bu sosial institut tam olaraq formalaşıb. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, ən əsası, milli dəyərləri qorumaq üçün yaradılan şərait cəmiyyətə faydalı bir nəslin yetişdiyini deməyə əsas verir. İdmanda sosial institutun formalaşması gənclərin hər sahədə özlərini sınamasına zəmin yaradır, onların fiziki, mənəvi-psixoloji vəziyyətlərini yaxşılaşdırır. Ona görə “idman sosiologiyası” anlayışını “sağlamlığın sosiologiyası” kimi də qəbul edə bilərik. Bunu isə cəmiyyətin sağlam tərzdə inkişafı kimi dəyərləndirmək olar.

İdmanın bir sosial institut kimi formalaşmasında idman mədəniyyətinin mühüm rolu vardır. İdman mədəniyyəti, yaxud fiziki mədəniyyət bir çox elmlərin tədqiqat obyektidir. Pedaqogika, psixologiya, tarix, kulturologiya, bədən tərbiyəsi nəzəriyyəsi kimi elmlərin formalaşması məhz öz başlanğıcını, əsasını buradan götürüb. Maraqlıdır ki, bu elmlərin hər biri idmanda özünə lazım olan amilləri seçir və öyrənir. Necəsinə gəlincə:

*– pedaqogika bədən tərbiyəsinin tədrisi metodlarını öyrənir;*

*– bədən tərbiyəsi nəzəriyyəsi fiziki çalışmaların yerinə yetirilməsi texnikası və metodikasını öyrənir;*

*– bu halda sosiologiyanın hədəfi isə bədən tərbiyəsi və idmanın sosial genezisini, sosial rolunu və sosial funksiyalarını tədqiq etməkdir. Digər elmlərdən fərqli olaraq o, bədən tərbiyəsi ilə idmanı daha tam şəkildə öyrənməyə çalışır və özündə bir çox başqa elmlərin elementlərini birləşdirir.*

Bəs idmanın hansı məqamlarında onun bir mədəniyyət nümunəsi olması daha çox özünü büruzə verir? Reallıq budur ki, idman hər zaman ümumbəşəri mədəniyyətin bir parçası hesab edilib. Ümumi qənaətə görə, mədəniyyət həm də formaların necə meydana gəlməsini, insanın bütün sahələr üzrə nəyi necə etdiyini təsvir edir. İdman və bədən tərbiyəsində isə insan, necə deyərlər, özü öz bədənini qurur, formalaşdırır, onu müəyyən bir idman növünün zərurətinə və tələblərinə uyğunlaşdırır. İdman insanlara gözəllik bəxş edir, idmandan alınan zövq təmənnasızdır, ona heyranlıq şəxsi mənafeyə əsaslanmır. Mədəniyyətin azadlığı və əlahiddəliyində də bu cür hallar var. Məhz buna görə idman mədəniyyətə yaxın, hətta onunla qoşa olan bir sahədir. İdman mədəniyyəti sağlam fərd kimi formalaşmaqda olan gənci cəmiyyətə icbari qaydada yox, yaradılan şəraitlə bəxş etməkdir.

Müasir dövrümüzdə sosial institutların yaradılması idmançıların uğurlu çıxışına da zəmin yaradıb. Bu gün qazanılan uğurların başlıca səbəbi gənclərə idmanın bir mədəniyyət olduğunu aşılamaq, onları həm idmançı, həm də savadlı bir fərd kimi formalaşdırmaqdır. Bu gün dünyada idmanın sosial bir institut və mədəniyyət kimi formalaşması idmançılar arasında dostluq münasibətlərini möhkəmləndirir, ölkələr arasında isə sülhün bərqərar olmasına dəstək verir.

## Paralimpiyaçılar üçün təlim-məşq toplanışı keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nda bu kateqoriyadan olan uşaqların istedadlarının aşkara çıxarılması və onların asudə vaxtlarının səmərəli təşkili üçün bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.***

Uşaqların asudə vaxtlarının səmərəli təşkili istiqamətində tədbirlər davam etdirilir. Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının dəvəti ilə Azərbaycan Milli Paralimpiya Komitəsinin masaüstü tennis idman növü üzrə baş məşqçisi Ruhiyyə Qubuşova və II Respublika Uşaq Paralimpiya Oyunlarının qalibi olan sağlamlıq imkanları məhdud 2 uşaq muxtar respublikamıza gəliblər. Bununla əlaqədar olaraq Paralimpiya Federasiyası proqram hazırlayıb. Proqrama əsasən dəvət olunanların 7 gün ərzində təlim-məşq toplanışı keçirilib. Təlim-məşq toplanışı ərzində masaüstü tennis idman növünə sağlamlıq imkanları məhdud uşaqların cəlbi məqsədilə uşaqlar və onların valideynləri ilə görüş də təşkil edilib.

Bu müddət ərzində federasiya rəsmilərinin Şərur Olimpiya-İdman Kompleksində məşq prosesi olub, fiziki imkanları məhdud uşaqlara idmanın bu növü barədə məlumat verilib.

Təlim-məşqin son günündə isə Şərur və Naxçıvanda fəaliyyət göstərən bölmələr arasında 18 yaşadək olan 12 sağlamlıq imkanları məhdud uşaq arasında stolüstü tennis idman növü üzrə yoldaşlıq görüşü təşkil edilib. Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzində reallaşan yarışın sonunda bütün rəqiblərini məğlub edən Allahverən Səfərov qalib adını qazanıb. Nihat İmanov ikinci, Orxan Məmmədov üçüncü olublar.

Sonda qaliblərə diplom, fərqlənən idmançılara isə fəxri fərmanlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Abbasov Yunis İbrahim oğlunun adına olan 1545 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 622